*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 iyul 2018-ci il № 51 (2267) Qiyməti 25 qəpik


## Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi keçirilib



*Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri baş tutub. Keçirilən hərbi təlim Azərbaycan Ordusunun yüksək səviyyəli hazırlığından xəbər verməklə yanaşı, müharibə zonasında yarana biləcək vəziyyətlərə çevik reaksiyanın yoxlanılması xarakteri daşıyır. Şəxsi heyətin döyüş taktikasına yiyələnməsi və yeni texnikanı mənimsəməsi baxımından mühüm əhəmiyyət kəsb edən təlimin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı həm siyasi, həm də beynəlxalq cəhətdən mühüm əhəmiyyət daşıdığını xüsusi qeyd etmək lazımdır. Təlimdə qoşunların yüksək döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri də yoxlanılıb.*

20.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunan təlim şəxsi heyətin plana əsasən həyəcan siqnalı ilə qaldırılması ilə başlayıb, döyüş və ehtiyat hərbi hissələrinin əməliyyat təyinatı rayonları istiqamətində hərəkəti ilə davam edib.

Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilib, eyni zamanda şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti xüsusi şəkildə tənzimlənib. Təlim prosesində şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bombahücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələri endirilib, həmçinin genişmiqyaslı hücum əməliyyatı həyata keçirməklə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Təlimin məqsədinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirən tank bölmələrinin təyin edilmiş məntəqələrə çıxarılması izlənilib və digər qoşun növlərinin uzlaşmasını yoxlamaq məqsədilə döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib.

Təlimdə qoşunlarımızın fəaliyyəti və düşmən haqqında tam məlumata malik olmaq üçün məlumatların əldə edilməsi məqsədilə kəşfiyyat, müşahidə və digər texniki vasitələr, o cümlədən pilotsuz uçuş aparatlarından (PUA) geniş istifadə edilib.

Sonda genişmiqyaslı təlimlərin gündüz və gecə vaxtı döyüş atışlı mərhələsi başlayıb. Bu mərhələdə qoşunlar şərti düşmənin hücumunun qarşısının alınması, onun atəşlə tələfata uğradılması, müdafiənin əlverişli hədlər üzrə bərpa olunması və genişmiqyaslı hücum əməliyyatının keçirilməsi tapşırıqlarını icra edib.

**(Ardı 2-ci səhifədə)**

# Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi keçirilib

(Əvvəli 1-ci səhifədə)

Nəticədə mürəkkəb dağlıq relyef və radioelektron mübarizə, həmçinin təlimlərin niyyəti ilə müəyyən edilmiş digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimdə qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilib, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib.

Müxtəlif poliqonlarda yeni silah sistemlərindən istifadə etməklə motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışları, praktiki raket buraxılışları və bombalama icra etməklə təlimi başa çatdırıb.

Keçirilən təlimə nəzarət etmək məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov səhra şəraitində keçirilən təlimlərin əsas komanda idarəetmə məntəqəsində olub.

Əvvəlcə nazirliyin rəhbər heyəti hərbi hissənin ərazisində ümummilli liderimiz Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri qoyub,



hörmət və ehtiramlarını ifadə ediblər.

Təlimlərə cəlb edilmiş zabit heyəti ilə keçirilən xidməti müşavirədə birləşmə və hərbi hissələrin komandir, rəis heyətinin planları, fəaliyyətləri, qəbul etdikləri qərarlarla bağlı məruzələr dinlənilib.

Müşavirədə çıxış edən Müdafiə naziri hazırkı dövrdə belə təlimlərin əhəmiyyətini xüsusi vurğulayaraq qarşıda duran vəzifələrdən danışıb, müvafiq tapşırıq və göstərişlər verib.

Ümumilikdə təlimi qiymətləndirmək məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən məsul zabitlərin iştirakı ilə genişmiqyaslı təlimlərin yekunlarına dair xidməti müşavirə də keçirilib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müxtəlif poliqonlar və təlim sahələrində gündüz və gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edərək general-polkovnik Zakir Həsənov bildirib ki, qoşunlar gizli şəkildə əsas istiqamətlər üzrə cəmləşərək gecə irimiqyaslı hücum əməliyyatlarını uğurla yerinə yetiriblər.

Müdafiə naziri qeyd edib ki, təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığı daha da təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilib, qərargahlar qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.



General-polkovnik Zakir Həsənov belə təlimlərin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.



Ölkəmizin təhlükəsizliyinin təminatı baxımından mütəmadi taktiki təlimlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Ordusunun hissə və bölmələrinin çətin relyef şəraitində mümkün təhdidlərə qarşı birgə xidməti-döyüş və əməliyyat-taktiki hərəkətlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən genişmiqyaslı taktiki təlim şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət edir. Taktiki təlimlər zamanı Azərbaycan Ordusunun bölmələri qarşıya qoyulan vəzifələri tam həcmdə yerinə yetirdi, möhkəm intizam, yüksək döyüş qabiliyyəti və əməliyyat şəraitində tapşırıqları yerinə yetirmək hazırlığını nümayiş etdirdi.

Keçirilən təlim bir daha onu sübut etdi ki, Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünün və təhlükəsizliyinin əsas təminatçısıdır. Eyni zamanda işğal olunmuş torpaqlarda uğurlu döyüş əməliyyatları aparmağa və torpaqlarımızı azad etməyə qadirdir. Yəni Azərbaycan Ordusu təlimlərdə göstərdiyi uğurla torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır.

**"Azərbaycan Ordusu"**

---

*Azərbaycan Ordusu - 100*

# “Torpaqlarımızı işğaldan azad edəcəyik!”

*Ön xətdə əsgərlərimizin, ordumuzun zaman anlamında dünəni, bu günü haqqında düşüncələrini düşüncələrimə düşən sevgi, qürur, heysiyyət,... işığı bilirəm; hər kəlmə Vətən deyir, ordu deyir, qələbə deyir, hər mətləbi Böyük Qələbəyə inam kimi dinləyirəm. Döyüş növbətçiliyinə gedənlərin, döyüş növbətçiliyindən qayıdanların baxışlarından oxunanları - "Mən Azərbaycan Ordusunun əsgəriyəm!", "Torpaqlarımızı işğaldan azad edəcəyik!" ümumən əsgərlərimizin mənəvi zənginliyinin üfüqləri, bir də hərbi xidmət amalı bilirəm. Onlarla bu qürurun cazibəsində söhbətləşirik.*

**Əsgər Kənan Əliyev:**

- Ötən il Bakıda keçirilən "Dəniz kuboku-2017" beynəlxalq təlimini izləyəndə o qədər qürurlanmışdıq ki! Bu tədbir sinif yoldaşlarımın dörd nəfərinin hərbçi peşəsini seçməsinə səbəb oldu. Onlar zabit olacaqlar. Bununla da qürur duyuram. Dostlarım xalqımızın güvənci olan ordumuzun zabiti olacaq. Mən də həqiqi hərbi xidmətdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etməyi qərara almışam. Nə gizlədim, dostlarımdan birinin zabit kimi xidmət edəcəyi hərbi hissədə xidmət etmək istərdim. Niyə? - bugünkü qüruru



daha əhatəli yaşamaq üçün. Bir var eşidəsən, bir də var görəsən. Mən dostumu nümunəvi zabit kimi görmək istəyirəm. İnanıram ki, bunu o da arzulayır. Ona da inanıram ki, bizim bu xidmət işğaldan azad olunmuş torpaqlarımızda olacaq. Ordumuzun 100 illik yubileyini bu istəklərlə qarşıladım. Onu da bilirəm ki, niyyət məqsədin başlanğıcıdır...

Sonu ruhən başlanğıcından görünən niyyətin yolu nurlu olur; əsgərlərimizin niyyət yolu nurludu.

Xətainin yolu nurlu yolumuzdu...

Cavad xanın yolu nurlu yoluydu.

Səməd bəy Mehmandarovun, Ələğa Şıxlinskinin, Cavad



Şıxlinskinin, Məmməd bəy Sulkeviçin, Şeyxzamanov qardaşlarının, ..., Yusiflərin, Vəzirlərin, Mübarizlərin, Samidlərin,..., Çingizlərin yolu nurlu yoluydu...

Günümüzün əsgərlərinin yolu nurlu yoldu... 100 yaşlı Azərbaycan Ordusunun yolu nurlu yoldu. 2-ci 100 ilinin yolu daha nurlu olacaq...

**Əsgər Ramin Cəfərov:**

- 2016-cı ilin aprel döyüşlərində orta məktəbdə oxuyurdum. Sinif yoldaşlarımla döyüşə getmək istədik. İcazə vermədilər. Biz də bilirdik ki, ordumuzun mülki əhaliyə, eləcə də yeniyetmələrə ehtiyacı yoxdu. Hər halda ürəyimiz bizi əsgərlərimizin yanına gətirdi. Böyük Qələbə qazandıq. O döyüşlər, o qələbə təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdi.

İndi əsgərik. Aprel döyüşləri haqqında daha geniş məlumatlar eşitmişik. O döyüşlərin iştirakçılarının başladığı qalibiyyət yolunu biz davam etdirəcəyik. Cəsarətlə, qətiyyətlə, Ali Baş Komandanın əmriylə.

Ordumuz güclüdür, əsgər və zabitlərimiz yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. Bizə ən müasir döyüş texnikaları, atıcı silahlar həvalə edilib. Ordunun gücü təkcə silahla ölçülmür, ordunun gücü Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi kimi, həm də o silahların həvalə edildiyi əsgərin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsi ilə, döyüş əzmi ilə, qələbə ruhu ilə ölçülür. Fəxr edirik ki, ordumuz dünyanın ən güclü orduları sırasındadır.

Ordumuzun 100 illik yubileyini yüksək döyüş əzmi ilə, qələbə ruhu ilə qarşıladıq. Qalib ordumuzun əsgəri kimi tərxis olunmaq istəyirik!..

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**



# Cəbhənin ön xəttində yeni inşa edilmiş infrastrukturun açılışı olub

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhənin ön xəttində inşa edilmiş infrastrukturun açılışında iştirak ediblər.

Yeni qərargah binası, əsgər yataqxanası və yeməkxanada yaradılan şəraitlə tanış olan Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



*Ön xətdən reportaj*

# Torpaqlarımızın sahibləri bizik

*Səhər yuxudan oyananda pəncərədən üzümə düşən günəş şüaları sanki bu günün mənim üçün xüsusi əhəmiyyət daşıyacağına işarəydi. Havanın xoş olması ezamiyyətimin yaddaqalan məqamlarının çox olacağından xəbər verirdi. Bu səfərimi digərlərindən fərqləndirən, daha da həyəcanlı edən amil bir vaxtlar xidmət etdiyim düşmənlə təmas xəttində yerləşən hərbi hissəyə getməyimdi.*

Təbiətin əsrarəngiz gözəlliyi, quşların şən nəğməsi uzun yolun narahatlığını bizlərə hiss etdirmir. Yolboyu bu yerlərə gəldiyim ilk günü, çiyin-çiyinə xidmət etdiyim yoldaşlarımı, əsgərlərimi, səngərdə keçirdiyimiz bayramları xatırlayıram. Ötən günləri yada salarkən, döyüşçü yoldaşım leytenant Allahverdi Baxışlı gəlir gözümün önünə. O, ömrünün ən gözəl çağında ermənilərin atəşkəs rejimini pozması nəticəsində döyüş postunda şəhid oldu. Qarabağ müharibəsində şəhid olan atasının döyüş yolunu layiqincə davam etdirən Allahverdi vətənpərvərliyi, yüksək əxlaqi-mənəvi, iradi keyfiyyətləri ilə əsgərlərinə nümunəydi. Avtomobilin nahamar yola çıxması məni xəyallarımdan ayırır.

Ön xətdə yerləşən "N" hərbi hissəsinin bir bölməsinə, Vətənimizin və xalqımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlıq yolunu davam etdirən döyüşçülərimizlə görüşə tələsirik. Bizi müşayiət edən hərbi hissənin zabiti mayor Qalibiyyət Əliyev əsgərlərimizin bilik və bacarığından söz açaraq bildirdi ki, şəxsi heyətin hərbi vərdişlərini artırmaq məqsədi ilə müxtəlif növ təlimlər keçirilir: "Bu gün hər bir Azərbaycan zabitinin qarşısında duran əsas vəzifələrdən biri də Vətənə hazırlıqlı əsgər yetişdirməkdir. Əsgərlərimizin öz silahının taktiki-texniki xüsusiyyətlərini, istismar qaydalarını yüksək səviyyədə bilməsi vacibdir. Əgər döyüş meydanında silahda ləngimə baş verərsə, o əsgər heç kimdən kömək gözləməməli, yaranmış problemi sərbəst aradan qaldırmalı və döyüşə davam etməlidir. Şəxsi heyətin döyüş vərdişlərinin yüksəldilməsi, ekstremal şəraitdə düzgün qərar qəbul etməsi üçün taktiki hazırlıq məşğələlərinin keçirilməsinə üstünlük verilir. Onların məşğələlərdə, təlimlərdə əldə etdiyi nailiyyətlər,



ermənilərə atılan hər güllə bizləri qələbəyə yaxınlaşdıran bir addım deməkdir".

Zabitlə birgə səngərə çatırıq. Döyüş mövqeyində gizir Elnur Əzizovla görüşürük. Şabran rayonundan ordu sıralarına çağırılan E.Əzizov ermənilərin atəşkəs rejimini tez-tez pozduqlarını bildirir: "Mənfur qonşularımız atəşkəsi pozsalar da, döyüşçülərimiz onlara layiqli cavab verirlər. Vətənpərvər oğullarımız hər an barmağı tətikdə döyüş əmrini gözləyirlər. Düşmən fikirləşməsin ki, o, bu gün Şuşanı, Laçını, Kəlbəcəri, ... işğal edibsə, oraların sahibidir. O torpaqların sahibləri bizik! Biz də gec-tez düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad edəcəyik. Erməni cəlladlarının qanı Azərbaycan əsgərinə haladır, çünki onlar bizim torpaqlarımızı işğal edib, Xocalı faciəsini, Xocalı soyqırımını törədiblər. Ali Baş Komandan İlham Əliyev çıxışlarının birində deyib: "Əgər erməni əsgərləri ölmək istəmirlərsə, qoy onda Azərbaycan torpaqlarından rədd olsunlar. Biz özgəsinin torpağını tutmamışıq. Əgər təcavüzkar müəyyən nəticələr çıxarmasa, onda Azərbaycanın Silahlı Qüvvələri öz qüdrətini göstərəcək". Bu da bəşəriyyətə bir daha sübut edir ki, bizim əsas məqsədimiz işğal altında olan torpaqlarımızı azad etmək və orada yaşayan soydaşlarımızı öz ata-baba yurdlarına geri qaytarmaqdır".

Həmsöhbətim onu da qeyd edir ki, Azərbaycan Ordusunda qələbəni təmin edəcək yüksək mənəvi-psixoloji mühit formalaşıb. "Ordumuzdakı sağlam mühitin bərqərar olmasının əsas şərtlərindən biri də komandir-əsgər münasibətidir. Əgər hərbi qulluqçularımız arasında qarşılıqlı etimad olmasa, xidmətin uğurlu nəticələrindən danışmağımız çətin olar. Vətənin müdafiəsində dayanan mərd oğullarımızı bir amal birləşdirir - işğal olunmuş torpaqlarımızı azad etmək. Belə çətin şəraitdə xidmət edən hərbçilərimiz bir-biri ilə səmimi və mehribandılar. Komandirlərimiz valideynlərindən uzaq olan əsgərlərimizin hər zaman qayğısına qalırlar. Əsgərlərimiz də onlara göstərilən qayğını, inamı hər zaman doğrultmağa çalışırlar."

Hərbi xidmətə Goranboy rayonundan çağırılan əsgər Cahangir Məmmədov səngərdə asudə vaxtın təşkili və onun maraqlı keçməsi üçün hər cür şəraitin yaradılmasından söz açır: "Düşmənlə təmas xəttində dayanmağımıza baxmayaraq asudə vaxtlarımızda müxtəlif radioverilişləri dinləyir, kitab və qəzet oxuyuruq. Şahmat, dama oynamağı bacaran yoldaşlarımız bir-biriləri ilə yarışlar keçirirlər. Komandirlərimiz həmişə qeyd edirlər ki, döyüş tapşırığını yerinə yetirməklə, təlimlərlə, məşğələlərlə yanaşı, asudə vaxtın maraqlı keçməsinə də xüsusi diqqət yetirilməlidir. Havanın isti keçməsi imkan verir ki, istedadı olan əsgərlərimiz bizim üçün açıq havada musiqi dəqiqələri təşkil etsinlər".

"Hər an əldə silah Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmışıq, hiyləgər düşmənin istənilən təxribatlarına layiqli cavab verməyə hazırıq. Biz yaxşı bilirik ki, böyüyüb boya-başa çatdığımız yerləri, ailəmizi, ana-bacılarımızı qoruyuruq. Səngərlər bizim müvəqqəti sığınacağımızdır. İnanırıq ki, tez bir zamanda torpaqlarımızı işğaldan azad edəcəyik. Aprel döyüşləri və Günnüt zəfəri ordumuzun döyüş hazırlığının düşməndən qat-qat üstün olduğunu bir daha sübut etdi. Bu həyatda bir arzum var: o da Qarabağımızı azad edən igidlərimizin sıralarında olmaqdır", - bu sözləri Göygöl rayonundan hərbi xidmətə çağırılan əsgər Cəlal Hacıyev deyir.

İşğal altında olan torpaqlarımızı müşahidə postundan nəzarət altında saxladıqlarını bildirən əsgər C.Hacıyev vurğulayır ki, doğma el-obamıza kiçik gözlükdən baxmaq çox ağırdır.

Ordu sıralarına Gəncə şəhərindən çağırılan əsgər Füzuli Bayramov isə bildirdi ki, Vətənə sədaqət andı içdiyi gün heç vaxt yadından çıxmaz. "Valideynlərimin sevinc göz yaşlarını görəndə özümlə fəxr etdim. Çünki mən də qəhrəmanlarımızın yolunu şərəflə davam etdirəcəyimə and içmişdim. Zamanla hərbin sirlərinə dərindən yiyələnərək öyrəndim ki, döyüşdə sadəcə gücümə yox, həm də zəkama güvənməliyəm. Komandirim baş leytenant Şirbala Hüseynov həmişə vurğulayır ki, torpaqlarımızın düşmən tapdağı altında olduğu bir vaxtda bizim boş oturmağa haqqımız yoxdur. Komandirimiz mütəmadi olaraq bizə Vətənimizi anamız qədər sevməyi aşılayır. Mən və əsgər yoldaşlarım belə vətənpərvər komandirlə çiyin-çiyinə xidmət etməkdən qürur duyuruq. Müddətli həqiqi hərbi xidmətimi başa vurduqdan sonra ordu sıralarında qalıb Vətənimə xidmət etmək istəyirəm. Qərarımı valideynlərim eşidəndə çox sevindilər və məni dəstəklədilər".

Əsgərlər Murad Məmmədzadə, Yusif Hüseynov, Murad Hüseynov və digərləri torpaqlarımızın azad olunacağı günü səbirsizliklə gözlədiklərini bildirdilər. Qeyd etdilər ki, Azərbaycan xalqına qələbə yaraşır. Həmin qələbəni Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan əsgəri təmin edəcək.

Xalqımıza qələbə sevincini yaşatmağa səbirsizlənən vətənpərvər oğullarımızla ön xətdə söhbətləşməyim heç vaxt yaddaşımdan silinməyəcək.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Günnüt kəndində etibarlı müdafiə sistemi yaradılıb

*Naxçıvan Muxtar Respublikasında ordu, birləşmə və hissələr üçün nümunəvi xidmət şəraiti yaradılıb. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Ordumuz tərəfindən nəzarət altına götürülən Günnüt kəndində də etibarlı müdafiə sistemi qurulub.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Günnüt kəndindəki hərbi hissədə olub, burada xidmət keçən əsgər və zabitlərlə görüşüb.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov əsgərləri salamlayıb, Azərbaycan Xalq Cümhuriyyəti və Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə şəxsi heyəti təbrik edərək deyib: "Ulu öndər Heydər Əliyev deyirdi: "Hər bir dövlət öz dövlətçiliyini qüdrətli etmək istəyirsə, onun güclü ordusu olmalıdır". Ümummilli Liderimizin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi tədbirlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan inkişaf etdikcə, ordumuzun da qüdrəti artır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad da ordumuzun gücünün və qüdrətinin daha bir nümayişi oldu."

Ali Məclisin sədri deyib: "Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl və sistemli şəkildə icra olunmaqdadır. Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki birləşmə və hissələri böyük təşkilatlanma və inkişaf yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Keçirilən hərbi əməliyyatlar onu deməyə əsas verir ki, muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və hər an işğal altındakı torpaqlarımızı azad etməyə qadir olan güclü ordu formalaşıb. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".

Ali Məclisin sədri bu əməliyyatların həyata keçirilməsində iştirak edən hərbi hissələrin şəxsi heyətinə təşəkkür edib, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib: "Şərur rayonunun mühüm strateji əhəmiyyətə malik olan Günnüt kəndi 1992-ci ildə işğal edilmişdi. Lakin Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilər işğaldan azad olunub. Şəxsi heyət əməliyyatlar keçirilən zaman rəşadət göstərərək böyük bir ərazini nəzarətə götürmüşdür. Qazanılan uğur Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən "Uğurlu Naxçıvan əməliyyatı" adlandırılmış, bu əməliyyatda xidməti olanlar təltif olunmuş və onların göstərdikləri qəhrəmanlıqlar yüksək qiymətləndirilmişdir."

Kərəm Mustafayev təltif olunan, mükafat alan, əməyi dəyərləndirilən hər bir şəxs adından Ali Baş Komandana və Ali Məclisin sədrinə minnətdarlıq edib, bundan sonra da qarşıya qoyulacaq hər bir tapşırığı uğurla yerinə yetirəcəklərini bildirib.

Zabit Rəşad Əliyev və gizir Hüseyn Vəliyev minnətdarlıq edərək deyiblər: "Uzun illərdir işğal altında olan Günnüt kəndinin nəzarətə götürülməsi bizim döyüş ruhumuzu daha da artırıb. Biz fəxr edirik ki, bu əməliyyatda iştirak etmişik. Düşmənin yaşayış məntəqələri və mühüm strateji yolları nəzarətimiz altındadır. Şəxsi heyət istənilən tapşırığı yerinə yetirməyə hazırdır. Biz bu zəfəri Şuşada, Laçında, Kəlbəcərdə və digər işğal altında olan torpaqlarımızda da qeyd edəcəyik."

Əsgər Rasim Əhmədəliyev çıxış edərək deyib: "Günnüt əməliyyatının uğurla başa çatdırılması ordumuzun qüdrətinin və peşəkarlığının nəticəsidir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi paradda Ali Baş Komandan tərəfindən Günnüt əməliyyatının yüksək qiymətləndirilməsi bizim qələbə əzmimizi artırıb. Döyüş mövqelərində xidmətin nümunəvi təşkili üçün yaradılan şərait göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Şüarımız və amalımız birdir: "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün".

Ali Məclisin sədri Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib.



Sonra Ali Məclisin sədri Günnüt kəndində və ətraf ərazilərdə yerləşən postlarda olub, əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb.

Ali Məclisin sədri hərbi əməliyyatların uğurla başa çatması münasibətilə şəxsi heyətə təşəkkürünü bildirərək deyib: "Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nailiyyətdir. Bu, həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər torpaqlarımızın işğaldan azad olunmasına yönəldilmişdir. Azərbaycan dövləti torpaqlarımızın sülh yolu ilə azad olunmasının tərəfdarıdır. Lakin aprel döyüşləri bir daha təsdiq etdi ki, Azərbaycan həm sülh,



həm də müharibə yolu ilə torpaqlarını azad etməyə qadirdir. Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi.

Sonra ön xətdə yerləşən digər postlarda şəxsi heyətlə görüşən Ali Məclisin sədri göstərdikləri şücaətə görə əsgər və zabitləri təbrik edib, onlara təşəkkürünü bildirib.

Zabit Rəşad Məmmədov minnətdarlıq edərək deyib: "Naxçıvan əməliyyatında şanlı Azərbaycan əsgəri düşmənə layiqli cavab verdi. Əməliyyatın çətinliklərinə baxmayaraq hər bir hərbi qulluqçu dövlətin və xalqın dəstəyini öz üzərində hiss edərək qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Fəxr edirik ki, bu torpaqların azad olunmasında iştirak etdik. Söz veririk ki, torpaqlarımızı bundan sonra da şərəflə qoruyacağıq. Bu əməliyyat bir daha düşmənə göstərdi ki, onun istənilən təxribatının qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaqdır. Şəxsi heyətimiz hər cür qayğı ilə əhatə olunub. Bu yaxınlarda hərbi qulluqçularımızın təltif olunması və onlara rütbələrin verilməsi bizi daha da ruhlandırdı. Növbəti döyüş əmri uğrunda əsgəri şücaətimizi göstərməyə hər an hazırıq."

Sonra Ali Məclisin sədri işğaldan azad edilən Günnüt kəndində olub, ərazidə müdafiənin təşkili və mövqelərin möhkəmləndirilməsi barədə tapşırıqlar verib.

Ali Məclisin sədri dayaq məntəqələrində xidmət aparan hərbi qulluqçularla görüşüb, onları təbrik edərək deyib: "Vaxtilə bu ərazilər ermənilər tərəfindən işğal olunmuş, Günnüt kəndində yaşayış yerləri dağıdılmışdır. Lakin uğurlu əməliyyatlardan sonra 10 min hektardan artıq əkinəyararlı torpaqlar nəzarət altına keçmişdir. Bu, Azərbaycan Ordusunun gücünün və şəxsi heyət arasındakı ruh yüksəkliyinin göstəricisidir. O ordu güclü deyil ki, onun çoxlu silah-sursatı vardır. O ordu güclüdür ki, onun əsgərlərinin döyüş ruhu yüksəkdir. Keçirilən əməliyyatlar Azərbaycan Ordusunun döyüş ruhunu göstərdi. İtki verilmədən torpaqlarımız geri alındı."

Daha sonra Ali Məclisin sədri bölük mərkəzində şəxsi heyətlə görüşüb, onlara hədiyyələr təqdim edib.

Əsgər Turan Dövrüşov minnətdarlıq edərək deyib ki, təlimlərdə qazandığımız təcrübə bizim qələbəmizin əsasını təşkil edir. "Şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Daim üzərimizdə qayğı hiss edirik. Bu dağlıq şəraitdə xidmətin təşkili üçün lazımi şərait yaradılır. Qarşımızda bir müqəddəs vəzifə dayanır. O da torpaqlarımızı qorumaqdan və verilən tapşırıqları uğurla icra etməkdən ibarətdir."

Məlumat verilib ki, ön xətdə şəxsi heyət üçün lazımi şərait yaradılır. Postlarda və bölük mərkəzlərində yeni yataqxana və xidmət binaları inşa olunur. Eyni zamanda, ərazidə yeni yollar çəkilir, postlar arasında rahat əlaqə təmin edilir.

Ali Məclisin sədri tikinti işlərini həyata keçirən heyətlə görüşüb, çətin dağlıq şəraitdə xidmətin nümunəvi təşkili üçün yaratdıqları şəraitə görə onlara təşəkkür edib.

Ali Məclisin sədri Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində olub, mövqelərimizin vəziyyəti ilə tanış olub.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat verib.

Qeyd olunub ki, Əlahiddə Ümumqoşun Ordu müdafiə zolağının Vəlidağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargərdik dağı, Bağırsaq dağı və Həsənqulubağ sahəsində ön xəttin dövlət sərhədi boyu əlverişli mövqeləri ələ keçirib. 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirilib. "Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometr yeni yol çəkilib, 60 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Müdafiə rayonunun qorunmasının təşkili məqsədilə ərazidə qısa müddətdə mühəndis-istehkam tədbirləri görülüb, postlar arasında dayanıqlı rabitə əlaqəsi yaradılıb, yeni səngərlər qazılıb. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi yaradılıb."

Ali Məclisin sədri müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirib, müdafiə mövqelərinin möhkəmləndirilməsi barədə tapşırıqlar verib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilib.

# Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Füzuli rayonunun Alxanlı kəndində olub

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyin bir qrup hərbi qulluqçusu Füzuli rayonunun Alxanlı kəndində olaraq, bir il öncə erməni təxribatının qurbanı olan yaş yarımlıq Zəhra və onun nənəsinin məzarını ziyarət ediblər.*



Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani baş vermiş faciəni xatırladaraq bildirib ki, erməni daşnakları zaman-zaman xalqımıza qarşı təcavüz etmiş, günahsız insanları hətta qocaları, qadınları, körpələri qətlə yetirmişlər. Ötən əsrin əvvəllərində də belə olmuş, bu gün də ermənilər öz məkrli niyyətlərindən əl çəkmirlər. Xocalıda və digər rayonlarda ermənilərin dinc əhaliyə, xüsusilə günahsız uşaqlara divan tutması, onların işgəncələrlə qətlə yetirilməsinə olan etirazlar bir çox beynəlxalq təşkilatlar tərəfindən cavabsız qaldığına görə düşmən yenə də bu iyrənc niyyətlərini davam etdirir.

Məsum Zəhranın ölümü bütün xalqımız kimi, Azərbaycan Ordusunun şəxsi heyətinin də böyük hiddətinə səbəb olmuş və nənə ilə nəvənin intiqamı artıqlaması ilə düşməndən alınmışdır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi adından körpə şəhidlə nənəsinin vəfatı ilə əlaqədar bir daha onların ailəsinə baş sağlığı verərək səbir və dözüm arzulayıb. İdarə rəisi qeyd edib ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüz tezliklə bərpa ediləcək, qaçqınlarımız, köçkünlərimiz minillik dədə-baba torpaqlarına qayıdacaq və bütün şəhidlərimizin, eləcə də məsum Zəhranın ruhu şad olacaq.

Hərbi qulluqçulardan polkovnik Elşad Əbilov, Alxanlı kənd icra nümayəndəsi İlham İsrafilov və başqaları çıxış edərək tezliklə şəhidlərimizin qisasının alınacağına dair əminliklərini bildirdilər.

Salman baba nəvəsinə və ömür-gün yoldaşına göstərilən daimi ehtiram və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Mehdi Hüseynzadə - 100*

# Əfsanəvi qəhrəman qəlbimizdə əbədi yaşayır

*Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilir. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə cəsur kəşfiyyatçının 100 illik yubileyi münasibətilə keçirilən tədbir də bu qəbildəndir.*



H.Aslanov adına Mərkəzi Zabitlər Evi kollektivinin, hərbi qulluqçuların, QHT və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mayor Ramil Qasımov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. "Azərbaycan xalqının qəhrəman oğlu, İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. 1932-1936-cı illərdə Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil almışdır. 1937-ci ildə Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutuna daxil olmuş, 1940-cı ildə Bakıya qayıdıb Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsilini davam etdirmişdir".

Təbliğat və hərbi kütləvi iş bölməsinin rəisi onu da qeyd etdi ki, 1941-ci ilin avqustunda Mehdi ordu sıralarına çağırılmış və 1942-ci ildə Tbilisi hərbi piyada məktəbini bitirdikdən sonra cəbhəyə yollanmışdır. "Minomyot taqımının komandiri kimi Stalinqrad döyüşündə iştirak etmiş, 1942-ci ilin avqustunda Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanaraq almanlara əsir düşmüşdür. 1943-cü ilin sonlarında Mehdi bir dəstə azərbaycanlı əsir ilə faşist əsarətindən qaçıb, Yuqoslaviya və İtaliya partizanlarına qoşulur...".

Qəhrəman haqqında geniş məlumat verən mayor Ramil Qasımov vurğuladı ki, Mehdi Hüseynzadə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanıb, Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazıb. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.



Tədbirdə çıxış edən "Şahdağ" Xeyriyyə İctimai Birliyinin sədri Rəhilə Teymurova "Azərbaycan həqiqətlərinin yayılması istiqamətində maarifləndirici tədbirlərin keçirilməsi" adlı layihənin əsas məqsədinin Azərbaycan həqiqətlərinin əhali arasında intensiv olaraq təbliğ edilməsi, Azərbaycanın beynəlxalq aləmdə daim artan nüfuzunun ictimaiyyətə çatdırılması olduğunu qeyd etdi. Birlik sədri Azərbaycan həqiqətlərinin, milli-mənəvi dəyərlərinin, mədəniyyətinin dünya ictimaiyyətinə təbliğ edilməsi hər bir vətəndaşın borcu olduğunu və bu işin böyük şərəf hissi doğurduğunu da vurğuladı.

"Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək" İctimai Birliyinin prezidenti Tofiq Əlizadə, "Carçı" jurnalının baş redaktoru Gülnarə Əmirquliyeva, Şahlar Baba, Zəminə Xınalı və başqaları çıxışlarında Mehdi Hüseynzadənin döyüş yolundan, dövlətimizin qəhrəmanın xatirəsinə ehtiramından söz açdılar.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin musiqi nömrələrindən ibarət konsert proqramı ilə başa çatdı.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**6 iyul 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, Voskevan, kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Qızılhacılı, Bala Cəfərli, Aşağı Əskipara, Fərəhli, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Abdinli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

*Azərbaycan Xalq Cümhuriyyəti - 100*

# Cümhuriyyət Ordusu ilə bağlı yeni fotolar

*Cümhuriyyət ordusunun quruculuq prosesini və onun şəxsi heyətini yaddaşlarımızda canlandıra biləcək fotosənədlər son dərəcə azdır. Cümhuriyyət ordusu haqqında əldə edilə biləcək hər bir fotosənəd maraqlı bir tapıntıdır. Tarix elmləri doktoru, professor Altay Göyüşovun Fransada apardığı tədqiqatlar zamanı üzə çıxardığı və böyük lütfkarlıqla bizə təqdim etdiyi bir neçə fotoşəkil Cümhuriyyət ordusu ilə bağlı qiymətli sənədlər kimi böyük əhəmiyyətə malikdir. Həmin fotolar Altay Göyüşov tərəfindən Azərbaycan Xalq Cümhuriyyətini 1919-cu ilin yanvarında işə başlayan Paris sülh konfransında təmsil edən nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşovun Fransada saxlanılan arxivində tədqiqat apararkən aşkar edilmişdir. Professor Altay Göyüşov onların fotosurətini Silahlı Qüvvələrin Hərbi Akademiyasına təqdim etmişdir.*





Cümhuriyyət ordusunun təşkilatlanmasında və bu ordunun Cümhuriyyətin ərazi bütövlüyü uğrunda mübarizəsinə rəhbərlik edilməsində misilsiz rolu olan general-mayor Həbib bəy Səlimovun hələlik başqa bir fotosu məlum deyildir. Ona görə də bu foto tarixi əhəmiyyət kəsb edir.

Təqdim olunan bu foto artıq bir müddət əvvəl elmi dövriyyəyə çıxarılmışdı. Lakin həmin fotonun, doğrudan da, Həbib bəy Səlimova məxsus olub-olmadığı müəyyən şübhə doğururdu. Professor Altay Göyüşovla söhbət zamanı məlum oldu ki, əslində, artıq işıq üzü görən həmin foto da elə onun gətirdiyi fotodur və bir müddət əvvəl bu foto tədqiqatçılar tərəfindən ondan alınaraq elmi dövriyyəyə çıxarılmışdı. Çünki hələlik Əlimərdan bəy Topçubaşovun Fransada saxlanılan arxivində ondan başqa digər bir azərbaycanlı tədqiqatçı işləməyib. Təqdim olunan fotonun Həbib bəy Səlimova məxsusluğunu fotonun arxasındakı yazılar təsdiq edir. Həmin yazılar fransız, ingilis və rus dillərindədir. "General Habib bek Salimoff. Commendant de la region de Bakou et de la qarnizone. Chief of Baku territory and garrison. Naç. Bakin. Ukr. Rayona i qarnizona Qeneral-Mayor Qabib bek Salimov".

Fotonun nə vaxt çəkilməsi haqqında qeyd yoxdur. Amma fotonun arxasındakı yazılar onun nə zaman çəkildiyini təxmini müəyyənləşdirməyə imkan verir. General-mayor Həbib bəy Səlimov 1919-cu il dekabrın 10-dan 1920-ci il fevralın 17-dək Bakı İstehkamat hissəsinin rəisi (Naçalnik Bakinskovo Ukreplennovo rayona) vəzifəsini icra etmişdi. Ona görə fotonun da həmin tarix arasında çəkildiyini güman etmək olar.

Fotonun aşağı hissəsində onun çəkildiyi fotoatelyenin sahibinin adı, arxada isə bu fotoatelyenin yerləşdiyi ünvan göstərilmişdir. "Krivaya" küçəsi hazırkı Fontanlar bağının keçmiş Kitab passajına birləşən hissəsində yerləşirdi. İndi bu küçənin yeri Fontanlar bağının ərazisinə qatılıb.

Təqdim olunan digər bir foto general-leytenant Tarxanova məxsusdur. General Tarxanovun da elmi dövriyyədə hər hansı bir fotosu mövcud deyildi. Onun fotosu ilk dəfədir ki, çap olunur.



Ehtimal olunur ki, general-leytenant Tarxanov Cümhuriyyət ordusuna cəlb ediləndə təqaüddə imiş. Onun zəngin təcrübəsi nəzərə alınaraq Cümhuriyyət ordusuna dəvət edilmişdi. Onun Cümhuriyyət ordusuna qəbul edilməsi haqqında hərbi nazirin 386 saylı əmri 1919-cu il avqustun 31-də imzalanıb. Həmin əmrə əsasən, general-leytenant Tarxanov 1919-cu il avqustun 25-dən Cümhuriyyət ordusunda xidmətdə hesab olundu.

General Tarxanov Cümhuriyyət ordusunun İstehkam idarəsinin rəisi vəzifəsinə təyin edilmişdi. Ondan əvvəl bu vəzifəni mülki mühəndis Zübeyir bəy Temirxanov icra edirdi. Amma təcrübəli hərbçi mühəndis, general Tarxanovu bu vəzifəyə təyin etmək imkanı yarananda hərbi nazir Səməd bəy Mehmandarov bu imkandan istifadə etməyi lazım bilmiş və İstehkam idarəsinə rəhbərliyi peşəkar hərbi mühəndisə tapşırmışdı.

General-leytenant Tarxanov Cümhuriyyətin süqutuna qədər ona tapşırılan vəzifəni icra etmişdi.

Tarxanovun fotosu da general Həbib bəy Səlimovun fotosunun çəkildiyi fotoatelyedə çəkilib. Cümhuriyyətin süqutundan sonra general Tarxanovun Sovet Azərbaycanı ordusunda öz xidmətini davam etdirməsi haqqında məlumat vardır.

İlk dəfə işıq üzü görən fotoların birində Cümhuriyyət ordusunun zirehli qatarını və onun şəxsi heyətini görmək mümkündür. Məlumdur ki, Cümhuriyyət ordusunun üç zirehli qatarının hər birinin konkret nömrəsi olmuşdur. Fotoda əks olunan zirehli qatarın hansı olmasını söyləmək çətindir. Amma fotonun verdiyi qənaət budur ki, zirehli qatar döyüşə hazır vəziyyətdədir. Ön planda zirehli qatarın şəxsi heyətini daşındığı vaqon, onun qarşısında isə sıraya düzülmüş 38 nəfərdən ibarət şəxsi heyət görünür. Geyim formasına görə belə bir qənaətə gəlmək olar ki, fotonun çəkildiyi vaxt havanın sərin olduğu dövrə, yaz və ya payız aylarına təsadüf edir.

Təqdim olunan fotolar içərisində Dəmiryolu mühafizə dəstəsinin fotosu keyfiyyətli fotolardan biridir. Fotoda təsvir olunan bölmə çox səliqə-sahmanla geyinmiş və silahlanmışdır. Geyimin kifayət qədər yeni bir geyim olduğunu müşahidə etmək mümkündür. Hətta bölmənin mollasının da xüsusi formada olduğu görünür. Bölmə sanki hərbi paradda iştirak etmək üçün hazırlanıb. Yəni, bu fotoşəkil Cümhuriyyət ordusunun şəxsi heyətinin geyim baxımından qənaətbəxş şəkildə təmin edildiyini söyləməyə imkan verir.

Cümhuriyyətin mövcudluğu illərində Bakıda, Gəncədə, Biləsuvarda, Xaçmazda, Yevlaxda, Ağstafada, Poyluda və Kürdəmirdə dəmir yolu stansiyalarının komendaturaları yaradılmışdı.



Bu komendaturalar onlar üçün müəyyənləşdirilmiş sahələrdə həm dəmir yolunun, həm də dəmir yolu ilə həyata keçirilən daşınmaların mühafizəsini həyata keçirirdilər. Fotoda təsvir olunan bölmə çox güman ki, bu komendaturalardan birinin nəzdində olan mühafizə dəstəsidir.

Digər fotolardan birinin arxasında yazıldığına görə həmin fotoda Ehtiyat polis təsvir edilmişdir. Fotonun arxasında olan rus dilindəki qeyd belədir: "Rezerv politsii". Məlumdur ki, Cümhuriyyətin süqutu ərəfəsində ordunun əsas qüvvələrinin Qarabağ cəbhəsində erməni təcavüzünə qarşı mübarizəyə cəlb edilməsi ilə əlaqədar olaraq Bakı şəhərində Hərbi Nazirliyin nəzdində bir "Yardım alayı" yaradılmışdı. Bu alay şəhərdə nizam-intizamın və asayişin təmin edilməsinə xidmət göstərməli idi. Sonradan bu alay Hərbi Nazirlikdən alınaraq Daxili İşlər Nazirliyinə verildi. Foto çox güman ki, bu alayın bölmələrindən birinə aiddir, bu bölmənin geyimi hərbi geyimdir.

Maraq doğuracaq fotolardan biri də Cümhuriyyət ordusu bölməsinin döyüş hazırlığı zamanı çəkilmiş fotosudur. Fotodan da göründüyü kimi, bölmə qış vaxtı təlim meydanında döyüş hazırlığı ilə məşğul olmaqdadır. Bölmə təlim poliqonuna pulemyotdan atəş açmağa gəlmişdir. Bunun üçün təlim poliqonuna üç ədəd pulemyot da çıxarılmışdır. Fotoda ön sırada dayanan zabitlərin birinin qarşısındakı cihaz, çox güman ki, atəşin nəticələrini müşahidə etməyə imkan verən durbindir. Əlində kağız tutmuş zabit isə ola bilsin ki, atışların nəticələrini qeydə alan zabitdir.



Bütünlükdə, bir daha qeyd edilməlidir ki, ilk dəfə çap olunan bu fotolar Cümhuriyyət ordusunun tarixinin dəyərli mənbələrindən biridir. Bu fotoların aşkar edilməsi isə onu deməyə əsas verir ki, müxtəlif arxivlərdə digər fotoların olması da istisna deyildir və gələcəkdə belə fotosənədlərin tapılması Cümhuriyyət ordusu tarixi haqqında yeni məlumatların ortaya çıxarılmasına imkan verə bilər.

**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik**

*Ordu və cəmiyyət*

# “Biz ordumuzla fəxr etmişik, fəxr edirik”

*Filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı Kürdəmir rayonunda doğulub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirib. AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran Regional şöbəsinin müdiri vəzifəsində çalışır.*



**- Yaqut xanım, yaradıcılığınız folklorla sıx bağlıdır. Qəhrəmanlıq və vətənpərvərlik mövzusu da sizə yad deyil. Aprel döyüşlərinin qəhrəmanlarından biri olan təyyarəçi Əbu Bəkir İsmayılov haqqında "Hay ver mənə, cənab leytenant" kitabını yazmısınız.**

- Aprel döyüşlərinin davam etdiyi günlər Azərbaycan xalqının milli qürur günüdür. İgid oğullarımız torpaqlarımızın azadlığı uğrunda cəsarətlə vuruşdular. Böyük uğurlar qazandığımız bu döyüşlərdə şəhidlərimiz də oldu. Ancaq bu günlər ərzində cəsur zabit və əsgərlərimiz Azərbaycan tarixinin şanlı qəhrəmanlıq salnaməsini yazdılar. Hamı kimi mən də o günlərdə mətbuatı, kütləvi informasiya vasitələrini həyəcanla izləyirdim. İtki xəbərini qəhərlə, kədərlə qarşılasam da, ordumuzun rəşadətini fərəh, qürur hissi ilə qarşılayırdım. Mühüm əhəmiyyətli yüksəkliklərin alınmasında, düşmənin bir sıra artilleriya qurğularının, silah-sursatının və canlı qüvvəsinin, atəş nöqtələrinin sıradan çıxarılmasında igidlik göstərən Mİ-24 hərbi helikopterinin və onun ekipajının aprelin 2-də düşmən tərəfindən vurulması məni də sarsıtmışdı. Həmin helikopterdə şəhid olan üç igiddən biri mənim həmyerlim, ata-anasını, qohum-əqrabasını yaxından tanıdığım, uşaqlıqdan gözümün qarşısında böyüyən Əbu Bəkir İsmayılov idi. İnana bilmirdim, onun ölümünə. Çox gənc idi - 26 yaşı vardı. Təzə evlənmişdi, arzuları vardı... Şəhidlərimizin nəşləri geri alınanadək mən də anasına, doğmalarına dəstək olmaq, dərdlərinə şərik çıxmaq üçün hər gün dolub-boşalan həyətə gedirdim. Əbu Bəkirin cənazəsi gecə yarı minlərlə insan izdihamının müşayiəti ilə evlərinə gətirilərkən və səhəri gün izdihamla İkinci Fəxri xiyabanda dəfn olunarkən keçirdiyim hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Həmin gündən Əbu Bəkirin xatirəsini əbədiləşdirməyi, göstərdiyi qəhrəmanlığı sözə gətirməyi düşünürdüm...

**- Qəhrəmana, qəhrəmanlığa həsr olunmuş bu kitabı yazarkən hansı hisslər keçirdiniz?**

- 40 gün əzizlərinə təskinlik vermək, onları tək qoymamaq üçün evlərinə tez-tez baş çəkirdim. Doğmalarının keçirdiyi hissləri müşahidə edir, xatirələrə qulaq asırdım. Özümü o ailənin üzvü, Əbu Bəkiri öz balam hesab edirdim. Övlad itkisinin, gənc ər itkisinin, qardaş, dost itkisinin nə demək olduğunu qəlbən hiss edirdim. Adı harda çəkilsəydi gözüm dolur, qəhərlənirdim. İndi də bu hisslərlə yaşayıram...

**- Kitabınızı qəhrəmanlıq dastanlarımızın davamı kimi qiymətləndirmək olar?**

- Əlbəttə! Hamımız yaxşı bilirik ki, mifik qəhrəmanları da xalq yaradır və onlar xalqın içərisindən çıxan, seçilmiş igid, cəsur oğulların əfsanələşdirilən obrazlarıdır. Müasir həyatımızın Koroğluları, Babəkləri, Qaçaq Nəbiləri də Vətən, torpaq uğrunda şəhid olan igidlərimizdir. Düşünürəm ki, onların hər birinə əbədi abidələr qoyulmalıdır. Hər bir yaradıcılıq nümunəsi - istər bədii, istər elmi, istərsə də publisistik əsər olsun, yuxusuz gecələrin, axtarışların, zəhmətin bəhrəsidir. Hərəsinin öz çətinliyi var. Bu mövzu bir az ağrılıdır. Dərdi çəkməyən dərdlini anlaya bilməz. Mən o itkini içimdən keçirib sonra yazmışam. Bir az obrazlı desək, arada qələmimi göz yaşlarıma da batırmışam...

**- Bu mövzunu davam etdirmək fikrindəsiniz?**

- Düşünürəm ki, bugünkü stabil həyatımıza görə hər birimiz Vətən, torpaq uğrunda şəhid olan oğullarımızın ruhu qarşısında borcluyuq. Mən borcumu azacıq da olsa verə bilmişəmsə, nə xoş. Mövzu ruhumu silkələyib təpətmələdir, qələmimə üreyimdən və qəlbimdən sızmalıdır. Məncə belə mövzular planlaşdırılmır, içdən gəlir. İçimiz isə, Vətən, torpaq uğrunda canını qurban verən qəhrəmanları vəsf edən mövzularla dolub boşalacaq.

**- Müharibə, qəhrəmanlıq və vətənpərvərlik mövzusunda yazılmış əsərlərin bədii dəyərini yüksək qiymətləndirirsiniz?**

- Tam mənada, xeyr. Məncə torpağı işğal olunan, ərazisində müharibə gedən, bir milyondan çox məcburi köçkünü, qaçqını olan bir dövlətin yaradıcı şəxsləri - yazarları, rejissorları, ssenaristləri, rəssamları, heykəltaraşları, bəstəkarları, jurnalistləri və s. bunu unutmamalı və vətənpərvərlik ruhunda daha çox, daha təsirli əsərlər yaratmalıdılar. Yazılan bu əsərləri isə hər şeydən əvvəl Qələbə ruhu birləşdirməlidir.

**- Bu yaxınlarda kitabınızın Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təqdimat mərasimi keçirildi. Kursantlarla olan bu görüş, bu ünsiyyət yaddaşınızda hansı izlər buraxdı?**

- Keçən ilin aprel ayından bu kitabın müxtəlif təşkilatlarda, ümumtəhsil müəssisələrində təqdimatı keçirilib. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbir ömrüm boyu yadımdan çıxmayacaq. Şəhid ailəsini və məni ayaqüstə alqışlayan nizam-intizamlı, hərbi geyimli kursantların qarşısında keçirdiyim həyacan, fəxarət, qürur... unudulmaz hisslərdir. Hər görüşdən, hər tanışlıqdan yeni bir mövzu pöhrələyir. Təbiidir ki, belə də olmalıdır. İnsan onu əhatə edən aləmə, eşitdiklərinə, oxuduqlarına həmişə yaradıcı yanaşmalıdır.

**- İndi hansı əsər üzərində işləyirsiniz?**

- İnsanı sabahlara istiqamətlənmiş düşüncələr, arzular yaşadıb aparır. Hazırda əlimdə bir sıra vacib yazılar var. Muzeydə gündəlik işlərimlə məşğul olsam da, yaradıcılığımdan qalmıram. Bu il əlamətdar hadisələrlə zəngin bir ildi. Qarşıda yeni maraqlı tədbirlərimiz, görüşlərimiz var. Yəqin ki, bundan sonra mütləq yeni əsərlər yazılacaq. Qəhrəmanlıq isə ədəbiyyatın şah mövzularından biridir. Deməli, bu istiqamətdə başladığım işlər öz axarı ilə davam edəcəkdir.

**- Zabit və əsgərlərə ünvanlanacaq ürək sözləriniz...**

- 2016-cı ilin aprelində şəhid olanların və yaralananların valideynləri ilə görüşü zamanı Prezidentimiz cənab İlham Əliyevin nitqindən bu sözləri diqqətinizə çatdırmaq istəyirəm: "Qəhrəman Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz, zabitlərimiz düşmən təxribatının qarşısını aldılar, düşmənə layiqli cavab verdilər və təmas xəttində öz üstünlüklərini daha da möhkəmləndirdilər... Biz öz torpaqlarımızda vuruşuruq, öz torpağımızı qoruyuruq. Bizim işimiz haqq işidir."

Mən də bu haqq işimizdə ordumuza - əsgər və zabitlərimizə uğurlar arzulayıram. Qoy bizim ordumuz tarixə öz adını qalib ordu kimi yazsın! O zaman şəhidlərimizin ruhu da dinclik tapar.

**- Yaqut xanım, yeri gəlmişkən bu günlərdə Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirildi. Parad haqqında təəssüratlarınız...**

- Bu paradın möhtəşəmliyi təkcə texnikaların nümayişi ilə məhdudlaşmır. Paradın möhtəşəmliyi ona vətəndaşların münasibətilə ölçülməlidir. Paradda yaşlılar da vardı, gənclər də, uşaqlar da. Hamısı bu paradı eyni istəklə, eyni arzuyla izləyirdi. Hamısı inanırdı ki, ordumuz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi bir fikir - "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır" - ziyalıları da qürurlandırır. Biz ordumuzla fəxr etmişik, fəxr edirik, fəxr edəcəyik.

**Söhbəti apardı:**
**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə 15 terrorçu zərərsizləşdirilib



Türkiyənin Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin ölkənin Hakkari bölgəsində terrorçulara endirdiyi zərbə nəticəsində 7 terrorçu zərərsizləşdirilib.

Mardin, Hakkari və Şırnak bölgələrində keçirilən antiterror əməliyyatlarında ümumilikdə 15 terrorçu məhv edilib.

### Ukrayna Türkiyədən pilotsuz uçuş aparatları alır



Ukrayna və Türkiyə arasında hərbi əməkdaşlığa dair yeni memorandum imzalanıb.

Bu barədə Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının mətbuat xidməti məlumat yayıb.

Memorandumun şərtlərinə görə, Ukrayna Türkiyədən pilotsuz uçuş aparatları alacaq. Bundan başqa, tərəflər zirehli texnikaların alınması, kosmik və aviasiya sahələrində layihələrin həyata keçirilməsi ilə bağlı məsələləri də müzakirə ediblər. Hər iki ölkə pilotsuz silah sistemləri istiqamətində əməkdaşlığın inkişaf etdirilməsi, zirehli nəqliyyat vasitələri üçün mühərriklərin yeni modellərini hazırlamaq məqsədilə birgə dizayn bürosunun yaradılması barədə də razılığa gəliblər. Bununla yanaşı, Türkiyə Ukraynanın "An-178" tipli təyyarəsinin alınmasına maraq göstərir.

### Taliban yaraqlıları Əfqanıstanda 6 polis əməkdaşını qətlə yetirib



Taliban hərəkatının yaraqlılarının Əfqanıstanın paytaxtı Kabildə törətdikləri terror aktı nəticəsində altı polis əməkdaşı qətlə yetirilib.

Terror aktı zamanı dörd dinc sakin yaralanıb.

Xatırladaq ki, Əfqanıstan hökuməti ilə Taliban arasında Ramazan bayramı ilə əlaqədar atəşkəs əldə olunmuşdu. Hökumət atəşkəsin uzunmüddətli olacağını bəyan etmişdi, lakin Taliban danışıqları pozub.

### Kanadada anomal istilərdən 17 nəfər ölüb



Kanadada anomal istilər nəticəsində ölənlərin sayı 17 nəfərə çatıb.

Onlardan 12 nəfər Monreal şəhərində, daha 5 nəfər isə ölkənin şərq bölgəsində ölüb. Burada havanın temperaturu müsbət 40 dərəcəni ötüb.

### İtaliya Liviyanın sahil-mühafizə xidmətinin gücləndirilməsinə yardım edəcək



İtaliya miqrant ticarətinə son qoymaq üzrə cəhdləri gücləndirmək üçün Liviyaya 10 motorlu qayıq və 2 gəmi verəcək.

Həmçinin gəmilərin xidməti və Liviya hərbi-dəniz donanması, sahil-mühafizə heyətinin təlimi üçün iki il ərzində 1,4 milyon avro ayrılması da nəzərdə tutulur.

Miqrant böhranı ilə üzbəüz qalan İtaliya miqrant axınının dayandırılmasına yardım etmək məqsədilə artıq Liviyanı digər hərbi-dəniz silahlanmaları ilə təchiz etdiyi bildirilir.

Bununla yanaşı, Maltada qeyri-hökumət təşkilatına məxsus "Sea watch" miqrant xilasetmə gəmisi saxlanılıb.

İtaliya Aralıq dənizində miqrantları xilas edən qeyri-hökumət təşkilatlarının limanlarını bağlamağa başlayıb. Xilasedici gəmilərdən ikisi İspaniyaya, biri isə Maltaya yollanmaq məcburiyyətində qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Beynəlxalq Qızıl Xaç Komitəsi seminar keçirdi

*İyulun 3-də Müdafiə Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində seminar keçirildi.*



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində keçirilən seminarda müxtəlif qoşun növlərindən olan zabit heyəti iştirak edirdi. Seminarı giriş sözü ilə açan BQXK-nın Azərbaycandakı nümayəndəsi İlahə Hüseynova dinləyicilərə öncə BQXK-nın missiyası barədə məlumat verdi. Bildirdi ki, neytral, müstəqil və qərəzsiz bir təşkilat olan BQXK-nın humanitar missiyasının əsas qayəsini insanların həyat və sağlamlığının qorunması təşkil edir. Azərbaycanda bu qurumun yaranması tarixinə nəzər salan İ.Hüseynova qeyd etdi ki, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ayrılmaz üzvü olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci ildə təsis edilmişdir. "Milli Cəmiyyət müsəlman Şərqində ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin varislərindən sayılır. Cəmiyyətin yaradılmasının təşəbbüskarı isə tam artilleriya generalı Əlağa Şıxlinski olmuşdur. Məlum aprel işğalından sonra cəmiyyətin fəaliyyəti də dayandı."

Natiq onu da vurğuladı ki, 1992-ci ildə Xocalı soyqırımından dərhal sonra Beynəlxalq Qızıl Xaç Komitəsi özünün mandatına uyğun olaraq Azərbaycanda yenidən nümayəndəliyini yaratdı. "Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə tərəfdaş qismində humanitar fəaliyyətlər həyata keçirməyə başladı. 1992-1995-ci illər ərzində BQXK vətəndaşlarımızın erməni əsirliyindən azad edilməsinə köməklik göstərərək Azərbaycana qaytardı."

Natiq BQXK-nın əməkdaşlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində əsir düşən şəxslərə də baş çəkdiklərini bildirdi. "Əsir düşən şəxsin rifahı və insan ləyaqətinə hörmət bizim əsas prioritetlərimizdəndir. Komitənin əməkdaşları əsir düşən şəxslərə mütəmadi baş çəkir, onlarla təklikdə söhbət edir, ailələri ilə əlaqə saxlamaları üçün imkan yaradılmasına köməklik göstərirlər. Həmçinin, azadlıqdan məhrumetmə yerlərindəki şəraiti qiymətləndirir və aşkar edilmiş problemləri azadlıqdan məhrumetmə yerlərinə cavabdeh olan hakimiyyət orqanları ilə konfidensial şəkildə müzakirə edirlər. Lakin münaqişənin ciddi humanitar fəsadlarından biri də itkin düşmüş insanların naməlum taleyidir. BQXK məsələyə xüsusi diqqət yetirir və Azərbaycan hökuməti ilə bu sahədə sıx əməkdaşlıq edir."

Komitənin nümayəndəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranan humanitar problemlərin aradan qaldırılması barədə də iştirakçılara məlumat verdi. "BQXK cəbhəboyu ərazilərdə ailələri və mülki infrastrukturu qorumaq üçün əlindən gələni edir. Riskləri azaltmaq və atışmalar zamanı təhlükəsizliyi təmin etmək məqsədilə ailələrə evlərinin qapı və pəncərələrinin yerinin dəyişdirilməsində və mühafizə divarlarının tikilməsində köməklik edilir."



Sonra İ.Hüseynova iştirakçıları müharibə gedən ölkələrdə əməliyyatlar zamanı davranış qaydaları, beynəlxalq hərbi qanunvericilik və normalar ilə tanış etdi.

Görüşdə, həmçinin şəxsi heyətə mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi, yaralananların qorunması, münaqişələr zamanı mülki şəxslərə dəstək verilməsi, mədəni abidələrin qorunması, hərbi əsirlərlə rəftar qaydaları barədə də məlumat verildi.

Üç gün davam edən seminarın sonunda zabitlərə sertifikatlar təqdim olundu.

Komitə nümayəndəsi yüksək səviyyəli əməkdaşlıqdan məmnunluğunu ifadə etdi, yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi. Sonda xatirə şəkli çəkildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Məişət şəraitimiz yüksək səviyyədədir

Bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması rəhbərliyin qarşısında duran prioritet məsələlərdən biridir. Ümumiyyətlə, cəbhə xəttində müasir standartlara cavab verən hərbi hissələrin tikilməsi buna ən bariz nümunədir. Tikilən hərbi hissələrdə müasir əsgər yeməkxanaları və yataqxanaları, ən yeni avadanlıqlarla təchiz olunan camaşırxanalar fəaliyyət göstərir. Əsgərlərin sosial-rifahının yaxşılaşdırılması üçün hərbi hissələrimizdə hər cür şərait yaradılmaqdadır.



"N" hərbi hissəsində şəxsi heyət üçün yaradılan şəraitlə yaxından tanış olduq. Dəhlizdə ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində fəaliyyətini əks etdirən foto-guşə yaradılıb. Əsgər yataqxanası müasir əşya dolabları, oturacaqlar, yataqlarla təmin edilib. Şəxsi heyətin asudə vaxtının təşkili üçün istirahət otaqları və kitabxana var. Havanın temperaturunun yüksək olmasına baxmayaraq əsgər yataqxanası sərindi.

Mayor Qənbər Orucov bildirdi ki, Azərbaycan Ordusunun 100-cü ildönümündə zabit kimi ordu sıralarında xidmət etmək onun üçün yaddaqalan hadisədir. Zabit Azərbaycan Ordusunun sosial-məişət təminatından bəhs edərkən söylədi ki, şəxsi heyətin hazırkı məişət şəraiti əvvəlki dövrlərlə müqayisəolunmaz dərəcədə inkişaf edib. "Düşmənlə təmas xəttində xidmət edən əsgərlərin məişət şəraitinin yaxşılaşdırılmasının vacibliyini Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışlarında hər zaman vurğulayıb. Ali Baş Komandanın ölkənin müdafiəsinə ayırdığı diqqətin nəticəsidir ki, ordumuz günü-gündən inkişaf etməkdədir".

Əsgər Taleh Mirzəyev xidmətə gəlməzdən əvvəl bərbər işləyib. Hərbi xidmətə Sabirabad rayonundan çağırılan T.Mirzəyev ən böyük arzusunun ön xətdə xidmət etmək olduğunu dedi: "Çox şükür ki, arzum həyata keçdi. Burada çoxlu dostlarım var. Ön xətdə xidmət edən əsgərlərin yoldaşlığı daha möhkəm olur".

Məişət şəraitindən bəhs edən həmsöhbətim onu da bildirdi ki, məişət şəraiti çox yüksək səviyyədədir. "Otaqlar müasir avadanlıqlarla təchiz olunub. Hər bir əsgər burada qurulan şəraitdən razıdır."

Əsgər Rahib Xudayarov da yaradılan şəraitdən məmnunluğunu bildirdi: "Valideynlər "Açıq qapı" günündə hərbi hissəyə gəlir, yaradılan şəraitlə yaxından tanış olur və razılıq edirlər. Xidmətimizin düzgün təşkil edilməsində heç bir manеə yoxdur. Burada biz gündəlik işlərimizi rahatlıqla görür və asudə vaxtlarımızda kitab mütaliə edirik".

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# "Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır"

Ermənistan kütləvi informasiya vasitələrində hökumətin qərarına istinadən Ermənistanın daxili qoşun birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilməsi barədə məlumat verilir. Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır və vəziyyətin gərginləşdirilməsinə xidmət edir. Beynəlxalq hüquqazidd bir şəkildə Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının böyük bir hissəsi Azərbaycanın işğal olunmuş ərazilərində cəmləşdirilib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Hikmət Hacıyevin KİV-ə açıqlamasında yer alıb.

Hikmət Hacıyev qeyd edib ki, daxili qoşun birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi Ermənistan ordusunda acınacaqlı vəziyyətin və şəxsi heyətin komplektləşdirilməsində üzləşdiyi ciddi problemlərin əyani göstəricisidir.

Bununla bərabər, ölkənin üzləşdiyi sosial-iqtisadi problemlərin həllində ciddi çətinliklərlə üzləşən Ermənistanın populist rəhbərliyi bu kimi gərginlik ab-havası və hərbi ritorika ilə ictimai rəyi manipulyasiya etməyə və öz reytinqini saxlamağa çalışır.

Öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq əvəzinə, Ermənistanın daxili qoşun birləşmələrini də Azərbaycanın işğal olunmuş ərazilərinə dislokasiya etməsi Ermənistanın işğalçı dövlət olduğunu və rəsmi Yerevanın münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını növbəti dəfə açıq şəkildə nümayiş etdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 450
Nüsxə 3525